# Rayon polis şöbəsində soyqırım günü anıldı

31 mart—Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar Qəbələ Rayon Polis Şöbəsində tədbir keçirilmişdir. Tədbirdə polis şöbəsinin şəxsi heyəti iştirak edirdi.

Yığıncağı giriş sözü ilə polis şöbəsinin rəis müavini Aləddin Nuhov açmışdır.

O bildirmişdir ki, mənfur qonşularımız ermənilər tarixən havadarlarına arxalanaraq xalqımızın başına zaman-zaman faciələr, müsibətlər gətirmişlər. Bu faciələrdən ən dəhşətlilərindən biri də 1918-ci ilin mart ayının sonunda, aprel ayının əvvəllərində törədilmişdir. Xalqımız hər il 31 mart Azərbaycanlıların Soyqırımı Gününü ürək ağrısı ilə qeyd edir. Ancaq biz ildə bir gün yox, hər gün erməni vəhşilərinin başımıza gətirdiyi faciələri xatırlamalı, əsl düşmənlərimizin kim olduğunu unutmamalıyıq.

Polis şöbəsinin rəis müavini Etibar Babayev 31 mart—Azərbaycanlıların Soyqırımı Günü barədə, bu qanlı faciənin başvermə səbəbi və təşkilatçıları barədə məruzə etmişdir. Natiq bildirmişdir ki, vaxtilə dünyanın hər yerində səfil sərgərdan həyat keçirən ermənilərə genişürəkli xalqımız öz torpaqlarında yer vermişdir. Ancaq bu nankor "qonaqlar" yerlərini bərkitdikdən sonra xalqımıza qarşı misli görünməmiş xəyanət yolu tutmuş, vətənimizin bir hissəsində özlərinə Ermənistan adlı quldur dövləti qurmalarına baxmayaraq daha böyük iştaha düşərək, Bakını da ələ keçirmək xülyasına düşmüşlər. 1918-ci ilin martında azərbaycanlılara qarşı törədilən soyqırımı da bu məqsədlə törədilmişdi. Biz heç zaman tarixin bu faciəylə dolu dərslərini unutmamalıyıq.

Yığıncağa dəvət olunmuş "Qəbələ" qəzetinin əməkdaşı Qüdrət Səmədov ermənilərin xalqımızın başına gətirdiyi faciələrin tarixi və nəticələri barədə çıxış etmişdir.

**"Qəbələ".**

# Torpaqların eroziya və şoranlaşması ilə bağlı zona tədbiri

(Əvvəli 5-ci səhifədə).

O, bildirib ki, hazırda institutun elmi işçiləri tərəfindən torpaqlarda münbitliyin qorunub saxlanılması və eroziya ilə bağlı qabaqlayıcı mübarizə tədbirləri, müasir suvarma texnologiyalarının işlənib hazırlanması və tətbiqi həyata keçirilir. Zakir Əliyev ölkəmizdə əkinçiliyin inkişaf etdirilməsi üçün bu sahələrdəki yeniliklərlə bağlı tez-tez rayonlarda seminarların keçirildiyini və elmi nailiyyətlər barədə ictimaiyyətə məlumat verildiyini qeyd edib.

Hazırda institutun mütəxəssisləri müasir aparatlar vasitəsilə aran rayonlarında torpaqların şoranlaşma dərəcəsini və dağlıq ərazilərdə eroziya prosesini müəyyən edir, elmi işçilərin iştirakı ilə tədqiqat işləri aparılır. Eroziya, şoranlaşma ilə mübarizə və suvarma sahəsində görülən işlər, əldə olunan nəticələr barədə məlumatlar, eləcə də torpaqlarda aparılan tədqiqat prosesini əks etdirən video görüntülər və foto şəkillər monitor vasitəsilə seminar iştirakçılarına nümayiş olunub, bu problemlərlə üzləşən torpaq mülkiyyətçilərinin sualları cavablandırılıb.

**Aslan CƏLİLOV.**

# Naxçıvan məktəbliləri Qəbələyə ekskursiyadan məmnun qalıblar

Prezident İlham Əliyevin təşəbbüsü ilə ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri üçün təşkil olunan "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyası çərçivəsində Naxçıvan məktəbliləri Qəbələ rayonu ilə tanış olmuşlar.

İsmayıllı-Qəbələ-Şəki marşrutu üzrə tur-aksiyada iştirak edən Naxçıvan, Ordubad, Şərur, Babək, Culfa, Kəngərli, Şahbuz rayon məktəblərinin IX-XI sinif şagirdlərindən ibarət 40 nəfərlik qrup martın 18-də axşam saatlarında Qəbələdəki "Qafqaz Yeddi Gözəl" otelində qarşılanmışlar.

Oteldə şagirdlərə əvvəlcə İsmayıllı-Qəbələ-Şəki marşrutu üzrə təşkil edilən tur-aksiyanın əhəmiyyəti barədə geniş məlumat verilmişdir.

Şagirdlər Qəbələnin tarixi, adət-ənənələri, coğrafiyası, turizm obyektləri, qədim abidələri, mənzərəli guşələri, son illər inşa edilən istehsal müəssisələri və sosial obyektləri haqqında məlumatlandırılmış, onların sualları cavablandırılmışdır. Sonra şagirdlərin iştirakı ilə intellektual oyunlar, müxtəlif viktorinalar keçirilmiş, musiqili-əyləncəli gecə təşkil olunmuşdur.

Şagirdlər öncə Çuxur Qəbələ kəndindəki qədim Qəbələ şəhərinin xarabalıqları və ərazidə aparılan arxeoloji qazıntıların nəticələri ilə də tanış olmuşlar.

Naxçıvan şagirdlərinin daha çox marağına səbəb olan yerlərdən biri isə "Nohur gölü" olmuşdur. Onlara bildirilmişdir ki, dəniz səviyyəsindən 700 metr hündürlükdə yerləşən Nohur gölünün ətrafı sıx meşələr və dağlarla əhatə olunmuşdur. Gölün uzunluğu 1925 metr, eni 1355 metr, sahəsi 240 hektar, dərinliyi 24 metr, suyunun həcmi isə 16 milyon kubmetrdir. Nohur gölünə Dəmiraparan və Vəndam çaylarının suyu axır. Göl balıqçılığın və idmanın avarçəkmə növünün inkişaf etdirilməsi baxımından böyük əhəmiyyətə malikdir.

Sonra Nic qəsəbəsinə səfər edən şagirdlər buradakı "Cotari" Alban kilsəsi, Azərbaycan xalqının qədim sənət və peşələrindən biri olan xalçaçılıq emalatxanası ilə yaxından tanış olmuşlar.




Səfər çərçivəsində Naxçıvan məktəbliləri Heydər Əliyev Mərkəzində də olmuşlar. Məktəblilərə burada ulu öndərin ictimai-siyasi fəaliyyəti barədə ətraflı məlumat verilmiş, həyat və fəaliyyəti barədə video-çarx nümayiş etdirilmişdir.

Qəbələyə səfərləri zamanı rayonda yaradılan müasir turizm infrastrukturu, otel və istirahət mərkəzləri ilə də tanış olan məktəblilər qədim və müasir Qəbələ şəhərini heyranlıqla seyr etdiklərini bildirmiş və xoş təəssüratlarla Bakı şəhərinə yola düşmüşlər.

**Foto S. Umuyevindir.**

# "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyası davam edir

Prezident İlham Əliyevin tapşırığına əsasən respublikamızın şəhər və rayonlarının IX-XI sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyanın növbəti mərhələsinə start verilib. Martın 17-də Balakən, Qax, Zaqatala, Şəki, Qəbələ, Şamaxı və İsmayıllı rayonlarının hər birindən 4 nəfər şagird Heydər Əliyev Beynəlxalq Aeroportundan Naxçıvana yola düşmüşlər.




Tur-aksiya çərçivəsində məktəblilər ölkəmizin tarixini dərindən öyrənməklə yanaşı, regionlarımızın müasir simasını əks etdirən Heydər Əliyev mərkəzləri, tarix-diyarşünaslıq muzeyləri, Bayraq meydanları, parklar, şəhərlərin görməli yerləri ilə də yaxından tanış olmaq imkanı əldə ediblər. Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü fəaliyyəti, diqqət və qayğısı sayəsində şəhər və rayonlarımızın necə sürətlə inkişaf etdiyinin, sosial-iqtisadi tərəqqinin əyani şəkildə şahidi olmuşlar.

**Foto S. Umuyevindir.**

# Bir daha Günəş və Ay tutulması gözlənilir

Xəbər verildiyi kimi mart ayının 20-də ilk tam Günəş tutulması baş vermişdir. Günəşin tam tutulması Atlantik Okeanının şimalında, İslandiyada və Kanadada daha aydın müşahidə olunmuşdur.

Azərbaycanda həmin günün buludlu keçdiyi üçün Günəşin tam tutulmasını müşahidə etmək mümkün olmamışdır. Bu təbiət hadisəsi 11:40-da başlamış 15:48-də başa çatmış, yəni 4 saat 8 dəqiqə davam etmişdir. Azərbaycanda isə bir saat 30 dəqiqə çəkmişdir. Yəni 13:49-da başlamış, 14:20-də başa çatmışdır.

Şamaxı Astrofizika Rəsədxanasının verdiyi məlumata görə bu il daha bir Günəş, iki Ay tutulması baş verəcəkdir. Növbəti Günəş tutulması sentyabrın 13-də müşahidə olunacaqdır.

Birinci ay tutulması aprelin 4-də, digəri isə sentyabrın 28-də olacaqdır.